Bu müəssisə ölkəmizdə turizm və otelçilik üzrə fəaliyyət göstərəcək ilk Peşə Tədris Mərkəzi olacaq.

Mərkəzdə orta ümumtəhsil məktəbi şagirdlərinə təhsillərini davam etdirməklə yanaşı, ödənişli yolla peşə təhsili almaq imkanı da yaradılacaq. Eyni zamanda əsas iş yerindən ayrılmamaqla əlavə peşə almaq, ixtisasartırmadan keçmək də mümkün olacaq. ]

Müasir standartlar səviyyəsində yaradılacaq bu mərkəzdə barmen- bufetçi, ofisiant, aşbaz, qənnadçı, otel nəzarətçisi, ekskursovod, qid-bələdçi, turist səfərlərinin təşkili üzrə sifarişlərin qəbulu agenti, otel xidməti, kastelyanşa, qapıçı, otel administratoru peşələri üzrə ixtisaslı kadrlar hazırlanacaq. Mərkəzin yaradılmasında əsas məqsəd regionda turizm və otelçilik sahələrinin inkişafına nail olmaq, turizm və otel obyektlərində xidmət səviyyəsinin yüksəldilməsinə yardım göstərməkdir.

Peşə Tədris Mərkəzində texniki səviyyədə əsas təhsil üzrə dövlət və ödənişli hesaba 2 illik, orta təhsil üzrə 1 illik, 3-6 aylıq qısamüddətli ödənişli, mühəndis-pedaqoji işçilər üçün 3 aylıq ixtisasartırma və yenidənhazırlanma, xarici dil və İKT üzrə ödənişli, eləcə də rəhbər işçilər və sahibkarlar üçün ödənişli təkmilləşdirmə kurslarının keçirilməsi nəzərdə tutulub.